# Fəxrimiz Milli Qəhrəman Sahil Ələmdar oğlu



**Sahil Ələmdar oğlu Məmmədov Qərbi Azərbaycanda - Uluxanlı mahalının Yuxarı Necili kəndində dünyaya göz açıb. Uşaqlıq illərindən o yerlərin romantik mənzərələri, ab-havası sahili özünə cılb edib. Zəngi çayı Necili kəndi ilə Zəngilər kəndini yarıya bölürdü. Sahil kiçik yaşlarında olarkən öz dostları və tay-tuşları ilə tez-tez həmin nəğməli sahillərinə, seyrinə çıxardı. Bəzən isə çayda çimib, dərinliklərə baş vurardı. Kəndin mərkəzində Sahilgilin ikimərtəbəli, yaraşıqlı, bağ-bağatlı evləri var idi. Məhəllələrində gur axan artezian suyu hər yeri gülüstana döndərirdi.**

Kəndin yaxınlığında "Əriklik" deyilən plantasiyada Sahil və sinif yoldaşları tez-tez görünərdilər. Burada onlar günlərini şən və mənalı keçirir, dərslərini hazırlayır və bəzən də maraqlı sual-cavablar edər, çalışırdılar ki, ensiklopedik biliyə nail olsunlar.

Sahil kənd klubunda bilyard, dama, domino oyunlarına da böyük maraq göstərir və idmana sonsuz həvəsi var idi. Kənd toyları, qara zurnada səslənən oyun havaları, tar-qaval səsi Sahili həmişə şən məclislərə çəkib aparardı.

Məktəbdə təhsil aldığı dövrdə Sahil dəfələrlə gəzintilərə çıxmış, Dərəçiçəyə, Göyçə gölünə, Dilicana, Dərələyizin "Qızıl ziyarət" yaylağına və digər yerlərə baş çəkib, Qərbi Azərbaycanın səfalı guşələrini seyr etmişdi. Habelə Sahil Naxçıvandakı "Əshabi-kəhf", Zəngibasardakı "Ağa dədə" ziyarətgahına da baş çəkirdi.

Sahil Məmmədovun ailəsi 1970-ci ildə Yuxarı Necili kəndindən Bakıya köçüb gəlmiş və sonradan yenə doğma yurda qayıtmışlar. Sahil Bakıya gələndə 6 yaşında idi. Həmin il Bakıxanov (keçmiş Razin) qəsəbəsindəki 96 saylı orta məktəbin 1 sinfinə qədəm qoyub. Məktəb illərində tədris olunan bütün fənlərə Sahil böyük maraq göstərdi, müəllimlərin və sinif yoldaşlarının sevimlisinə çevrildi. Dərs əlaçısı kimi tanındı. Orta məktəbdə təhsilini uğurla başa çatdırdıqdan sonra yenidən Uluxanlıya qayıtdı. Bir müddətdən sonra isə doğulub boya-başa çatdığı kəndlərindən ordu sıralarına yollandı. Moskva yaxınlığında hərbi xidmətdə oldu. Sonra isə Daxili İşlər Nazirliyinin siyasi məktəbinə göndərildi. Məktəbi bitirdikdən sonra beş il Kiyev şəhərində Konvoy rotasının komandir müavini işlədi. Həmin dövrdə Sahilin qəlbində Azərbaycana dönmək arzusu baş qaldırmışdı. Bu, heç də təsadüfi deyildi. Axı, həmin vaxtlar erməni daşnakları uydurma Qarabağ məsələsini ortaya atmışdılar.

Sovetlər ölkəsinin rəhbərləri, ermənipərəst Qorbaçov isə buna göz yumurdular.

Sahil qərib bir diyarda mərkəzi televiziyada uydurma Sumqayıt haqqında verilişləri eşidəndə qəlbi alovlanıb yandı. Siyasi şöbənin rəisi, polkovnik A.Koruriv zabitləri bir yerə toplayıb onlara Sumqayıtda baş verənlər haqqında danışdı. Özü də şişirdilmiş şəkildə, erməni daşnaklarının xeyrinə. Bir neçə aydan sonra Sahil Qərbi Azərbaycandan soydaşlarımızın erməni xəyanəti sayəsində köçürülməsi xəbərini eşitdi. Mart ayında məzuniyyət götürüb Uluxanlıya gəldi. Sürücü işləyən atası Ələmdar, anası Suqra balalarını duz kimi yalayıb bağrına basdılar. Qərbi Azərbaycandakı azərbaycanlıların acı taleyi Sahili göyüm-göyüm göynədirdi. Elə buna görə də vaxt itirməyib çətin anda min bir müsibətlə valideynlərini yola salıb, bir balaca rahatlıq tapdıqdan sonra yenidən Kiyev şəhərinə qayıtdı. Sahil işinin Azərbaycana dəyişdirilməsi ilə bağlı ərizə yazdı. Onun ərizəsinə rədd cavabı verildi. Ona bildirdilər ki, əgər buradan getsən, bütün zabit imtiyazlardan, səlahiyyətlərindən, rütbədən məhrum ediləcəksən. Beşillik zəhmətinə heyfi gəldi. Kor-peşman hissəyə qayıdıb xidməti vəzifəsini davam etdirdi.

İgid, fərli oğul dar gündə tanınar. Elə buna görə də Sahil Məmmədov köksündən qan axan Vətənə arxa kömək durmaq məqsədilə 25 oktyabr 1991-ci ildə Bakıya gəldi. O, 1992-ci il yanvarın 2-dən etibarən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Qoşunlar İdarəsinin hərbi polis alayında qulluğa başladı. Əvvəlcə rota komandirinin müavini vəzifəsinə təyin olundu. O, hərbi sahədəki təcrübəsinə arxayın olaraq qəlbinin hökmü ilə cəbhə bölgələrinə göndərilməsini xahiş etdi.

Nəhayət, aprelin 18-də Zəngilanın Qazançı kəndinə ezam olundu. Burada zastava rəisi kimi işə başladı, həm də komandir idi. Burada vəziyyət çətin idi, silah çatışmırdı, ağır texnika isə ümumiyyətlə yox idi. Buna baxmayaraq, Sahil Məmmədovun igid döyüşçüləri Qazançı kəndindən keçən əsas yolu ələ keçirmək istəyən daşnakların hücumlarını bacarıqla dəf edirdilər. Hər dəfə də erməni tərəfi itki verərək geri çəkilirdi.

...Sahilin kəşfiyyatda olan əsgərləri xəbər gətirdilər ki, ermənilər sərhəd yaxınlığına çoxlu qüvvə və hərbi texnika cəmləşdirirlər. Lakin bizimkilər həmin anda hücuma keçə bilmədilər. Çünki şiddətli yağış buna imkan vermədi. İyunun 3-də səhər tezdən Sahil Məmmədovun başçılıq etdiyi 20 nəfərlik qrup kəşfiyyata yollandı. Ermənilərin mövqeyinə yaxınlaşıb, əks tərəfdən Dərəli kəndinin həndəvərinə çıxmaq lazım idi. Hücuma hazırlaşan daşnaklar barədə məlumat toplamaq üçün Azərbaycan əsgərləri tək-tək, habelə 2-3 nəfərlə ermənilərin mövqelərinə doğru irəliləyirdilər. Sahil həm komandirlik borcunu yerinə yetirir, həm də kəşfiyyatçı idi. Əsas məqsəd ermənilərin postu yerləşən və böyük strateji əhəmiyyəti olan yüksəkliyi qəfil hücumla almaqdan ibarət idi. Həmin yüksəklikdən düşmənin Çəkətin kəndi, ermənilərin döyüş mövqeləri aydın görünürdü. Ermənilərin mövqeləri o qədər yaxında idi ki, hətta danışıqları da eşidilirdi.

Komandir Sahil Məmmədov əsgərlərə atəş açmaq əmrini verdi. Qumbaraatanın iki mərmisinin partlayışından sonra tam aydın oldu ki, post, həqiqətən əhəmiyyət kəsb edir və orada çoxlu adam var. Bizim əsgərlər daha iki mərmi atdılar. Sonra isə güclü atəş başladı. Erməni quldurları əvvəlcə özlərini itirdilər. Lakin az sonra Sahil gördü ki, Çəkətin kəndindən onlara tərəf 122 millimetrlik top tuşlanır. Komandir S.Məmmədov fikirləşdi ki, postu tutub, oradakı yaraqlıları məhv etdikdən sonra geri çəkilmək lazımdır. Xoşbəxtlikdən ölən və ağır yaralananlar yox idi. İlk ağır qəlpə yarasını elə komandirin özü aldı. Yüksəkliyi tutub, düşmən postunu məhv edən rotamız müvəqqəti geri çəkildi. Həmin vaxt ermənilər Qazançı, Ağkənd, Dərəli kəndlərini, əllərindən çıxan mövqeləri top atəşinə tutmağa başladı. Qafan-Gorus yolu istiqamətindən düşmən gülləsi yağış kimi yağırdı. Düşmən itirilən mövqeləri geri götürməyə cəhd göstərdisə də, məqsədlərinə nail ola bilmədilər. Bu qanlı döyüşdə rota komandiri Sahil Məmmədov ağır yaralansa da, döyüş meydanını tərk etmədi. Döyüşlər səngidikdən sonra Sahil Zəngilan rayon xəstəxanasının cərrahiyyə şöbəsinə gətirildi. Orada komandirə ilk tibbi yardım göstərildikdən sonra Sahil Məmmədov Bakıya hərbi hospitala çatdırıldı.

Hərbi hospitalın həkimlərindən - mayor C.Qasımov, baş leytenant Ş.Rzayev, hospitalın baş həkimi, mayor M.Seyidəliyev yaralı komandiri ölümün pəncəsindən xilas etmək üçün əllərindən gələn hər şeyi etdilər. Bacarıqlı komandirin səhhətinin yaxşılaşması üçün üç ay davam edən qayğı və diqqət uğurla nəticələndi. Ayrı çıxış yolu yox idi, komandirin yaşaması üçün bir ayağının kəsməli oldular. Sahil Məmmədov bir ayağını itirdiyinə görə yox, cəbhə bölgələrində qeyrətlə vuruşan əsgərlərinə görə darıxardı. Yaralı vəziyyətdə fikri-zikri döyüş səngərlərində, Zəngilan bölgəsində idi.

Sahil ağır yaralandıqdan sonra onun rotasında otuz nəfərə yaxın əsgər və zabit həlak olmuş, hətta yaralı vəziyyətdə ermənilərə əsir düşmüşdülər. Ağdam bölgəsində həlak olan, bir vaxtlar Sahilin təhsil aldığı ali hərbi məktəbi bitirmiş leytenant Oqtay Eynullayev də onların arasında olub.

Qarabağ uğrunda gedən döyüşlərdə misilsiz xidmət və şücaət göstərən, təcrübəli, bacarıqlı komandir əsgərləri arxasınca tək və qələbəyə ruhlandıran zəngibasarlı Sahil Ələmdar oğlu Məmmədov Respublika Prezidentinin fərmanı ilə 1992-ci ilin oktyabrında Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Bəli, Sahil Məmmədovun adı Azərbaycan zabitlərinini sırasında ən önəmli yerlərdən birini tutur. Sözün əsl mənasında zəngibasarlı, rəşadətli döyüş yolu keçmiş bu igid bu günümüzün Xətai bərabəri sərkədəsidir. Döyüş cəbhələrində, Zəngilanda onun qəhrəmanlıqlarının izləri yaşayır.

Bu günlərdə biz Azərbaycanın Milli Qəhrəmanı Sahil Məmmədovla görüşüb söhbət etdik. Qəlbindən süzülüb xoş sözləri o, belə ifadə etdi:

—Ermənilər və onların havadarları yaxşı bilməlidir ki, çox tezliklə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin titanik səyi nəticəsində torpaqlarımız işğaldan azad olunacaq. Qüdrətli ordumuz var, ordu quruculuğu ilə bağlı strateji xətt Azərbaycanda prioritet istiqamətlərdən biri olaraq qalır!

**Qədir ASLAN,**
**"Respublika".**